# Milli Təhlükəsizlik orqanlarının peşə bayramı

***Bu gün təhlükəsizlik orqanları Azərbaycanın siyasi-iqtisadi maraqlarının təmin olunmasında, konstitusiya quruluşunun qorunmasında, kəşfiyyat və əkskəşfiyyat, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə və digər sahələrdə mühüm nailiyyətlər əldə etmişdir.***

**İlham Əliyev.**



Ümummilli lider Heydər Əliyevin 23 mart 1997-ci il tarixli "Azərbaycan Respublikası milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında sərəncamı ilə 28 mart hər il milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur. Ölkəmizin milli təhlükəsizlik orqanlarının peşə bayramları bu il də yüksək səviyyədə keçirildi.

Ötən 96 il ərzində Azərbaycan Milli Təhlükəsizlik orqanları şərəfli yol keçmişdir.

Milli Təhlükəsizlik Nazirliyi Qəbələ Rayon Şöbəsinin əməkdaşları da özlərinin peşə bayramlarını qeyd etmək üçün mart ayının 28-də ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış



abidəsi önünə gəlmişlər.

Onlar abidənin önünə tər qərənfillər düzmüş, dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər.

Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov və rayonun hüquq mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər.

**Oqtay MƏMMƏDOV.**

(Əvvəli 3-cü səhifədə).

**Emil Abasov,**
**Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının məsul işçisi.**



Əziz gənclər!

Konfrans münasibətilə sizi təbrik edirəm. Mən qısaca olaraq hər bir Yeni Azərbaycan Partiyası üzvü olan gəncin üzərinə düşən vəzifələri bir daha xatırlatmaq istəyirəm.

Gənclərimiz partiyamızın avanqard qüvvəsidir. Hər bir Yeni Azərbaycan Partiyası üzvü olan gənc bu partiyanın təməl prinsiplərini daim öyrənməli və əməl etməlidir. Hər bir gənc daim öz üzərində işləməlidir. Bu gün gənclərin öz intellektual səviyyəsini artırmaq üçün çox böyük imkanı var. Zəngin kitabxanalar, internetə çıxış sizin ixtiyarınızdadır.

Savadlı, hazırlıqlı gənc öz arxasında xeyli gənci apara bilər. Buna görə də bizim əsas məqsədimiz gənclərin intellektual səviyyəsinin artırılmasıdır.

Hər dövrün öz xüsusiyyətləri var. İndiki dövr informasiya, internet dövrüdür. Bu informasiyadan düzgün nəticə çıxarmadıqda, verilən informasiyaları düzgün qiymətləndirmədikdə vəziyyət Liviyadakı, Suriyadakı, Yəməndəki və sair ölkələrdəki kimi olur. Bizim gənclərimiz ətrafda baş verənləri, sosial şəbəkədə qurulan tələləri düzgün qiymətləndirə və cavablandıra bilir.

Belə də davam etməlidir.

Müasir gənclərimizin xarici dilləri öyrənməsi çox vacib məsələdir. Ən azı bir xarici dil bilmək vacibdir.

Çıxışımın sonunda hər bir gənci dövlətçiliyimizə sədaqətli olmağa, dövlətimiz və Prezidentimiz ətrafında daha sıx birləşməyə dəvət edirəm.

# 31 Mart–Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar rayon tədbiri

31 mart azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Qəbələ Rayon Mədəniyyət Mərkəzində tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır. Azərbaycanlılara qarşı 31 mart 1918-ci ildə və sonrakı tarixlərdə törədilmiş soyqırımları qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.



31 mart 1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş soyqırımının tarixi kökləri, səbəbləri və nəticələri barədə məruzə etmək üçün söz Qəbələ şəhər 5 saylı tam orta məktəbin tarix müəllimi Tahir Məsimova verilmişdir. O azərbaycanlılara qarşı törədilmiş soyqırımlarının tarixi barədə sənədlərə əsaslanan faktları tədbir iştirakçılarının nəzərinə çatdırmışdır.

Tədbirdə çıxış edən Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov bildirmişdir ki, bu gün dünyanın hər yerində faşist cəlladları təqib edildikləri və cəzalandırıldıqları halda Ermənistan adlı quldur yuvasında faşist cəlladları Droya, Nijdeyə və sairlərə abidələr qoyurlar, gənc nəslə qəhrəman kimi təqdim olunurlar.

"Qəbələ" qəzetinin əməkdaşı Qüdrət Səmədov çıxışında qeyd etdi ki, biz erməni vəhşilərinin xalqımıza qarşı törətdiyi soyqırımlardan nəticə çıxarmalı, əsil düşmənlərimizi gənc nəslə tanıtmalıyıq. Torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir dövrdə bizim hamımızın cəmiyyətdəki mövqeyimizdən, əqidəmizdən və sairlərdən asılı olmayaraq milli birliyimizin möhkəmlənməsinə ehtiyacımız var.

Tədbirdə Qəbələ Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Sabir Bayramov, Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov, Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin baş həkimi əvəzi Kamal Məmmədov çıxış edərək azərbaycanlılara qarşı zaman-zaman törədilmiş soyqırımlardan, deportasiya və işğalçılıq siyasətindən danışmış, bu hadisələrdən nəticə çıxarmağın vacibliyini vurğulamışlar. Tədbirdə gənc nəslin vətənə yüksək məhəbbət, düşmənlərə nifrət hissi ruhunda tərbiyə olunmasının vacibliyi xüsusilə qeyd edilmişdir.

**"Qəbələ".**

# Azərbaycanlıların soyqırımı: tarixi həqiqətlər və ədalət

Dünən rayon mərkəzi xəstəxanasında Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar xəstəxananın bütün tibb işçilərinin iştirakı ilə geniş tədbir keçirilmişdir.



Tədbiri xəstəxananın baş həkimi Sabir Bayramov acmış və təklifi ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhidlik zirvəsinə yüksələn soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə daha sonra məruzə və çıxışlar olmuşdur. Məruzə və çıxışlarda qeyd edilmişdir ki, xəyanətkar erməni təcavüzkarları zaman-zaman ölkəmizin ərazi bütövlüyünü pozmuş, ötən əsrin əvvəllərində və sonrakı illərdə rus bolşevizminin təsiri və dəstəyi altında hissə-hissə əzəli Azərbaycan torpaqlarını ələ keçirmişlər. Çıxışlarda 1905—1907-ci, 1918—1920-ci illərdə, nəhayət, 1988—1990-cı illərdə erməni seperatçılarının Azərbaycanda törətdikləri kütləvi qırğınlar və Ermənistanın Azərbaycana qarşı apardığı etnik təmizləmə siyasəti, bu siyasətin mərhələləri barədə ətraflı açıqlamalar verilmiş, onların Azərbaycan torpaqlarının hesabına «Böyük Ermənistan» yaratmaq xülyasına qarşı Azərbaycan xalqının, dövlətimizin daim hazır olması lüzumundan danışılmışdır. Bu istiqamətdə gənc nəsilin vətənpərvərlik tərbiyəsi məsələsi yığıncaqda ön plana çəkilmişdir.

Yığıncağı xəstəxananın baş həkimi S. Bayramov yekunlaşdırmışdır.

**N. ATAKİŞİYEV.**

**Səhifənin foto-şəkilləri Səhrab Umuyevindir.**